CASPIAN agro

18-ci Azərbaycan Beynəlxalq

# KƏND TƏSƏRRÜFATI SƏRGİSİ

13|14|15|16 MAY 2025

BAKI EKSPO MƏRKƏZİ

# SƏRGİ ÜZRƏ HESABAT



# MÜNDƏRİCAT


Sərgi haqqında 2

Azərbaycan Respublikasının Prezidentinin səfəri 3

Sərginin rəsmi açılış mərasimi 4

VİP qonaqların rəyləri 5

PR kampaniyası və KİV-də işıqlandırma 6

Reklam kampaniyası 7

Sərginin informasiya dəstəyi 8

Ziyarətçilər haqqında 9

Ziyarətçilərin rəyləri 10

İştirakçılar haqqında 11

İştirakçıların rəyləri 12

Sərgi çərçivəsində əlavə tədbirlər 13

Caspian Agro 2026 sərgisi 15






# CASPIAN AGRO

## SƏRGİSİ KƏND TƏSƏRRÜFATI MƏHSULLARI VƏ ƏRZAQ İSTEHSALÇILARININ İRİ REGİONAL FORUMUDUR

Regionun ən çox ziyarət olunan və kütləvi informasiya vasitələrində ən çox işıqlandırılan sərgilərindən biri kimi, bu tədbirin məqsədi regionda kənd təsərrüfatının davamlı inkişafına, Azərbaycan Respublikasının aqrosənaye kompleksində mütərəqqi texnologiyaların texniki tətbiqinə, qabaqcıl təcrübə mübadiləsinə, eləcə də yerli və xarici fermerlər arasında qarşılıqlı faydalı işgüzar əlaqələrin möhkəmləndirilməsinə kömək etməkdir. Sərgi iştirakçıları aralarında idxalçılar, ixracatçılar, distribütorlar, fermerlər, habelə topdan və pərakəndə satış müəssisələrinin nümayəndələri olan eksponentlər və ziyarətçilərlə görüşmək üçün əla imkan qazanacaqlar.














# PREZİDENTİN SƏFƏRİ




Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEV sərgi ekspozisiyalarına baxış keçirərək, Azərbaycan Respublikasının kənd təsərrüfatı potensialını əks etdirən təqdim olunmuş məhsul və xidmətlərlə tanış oldu. Ölkə rəhbəri həmçinin xarici ölkələrin milli pavilyonlarını da ziyarət edib.







# SƏRGİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

2025-ci İL 13 MAY TARİXİNDƏ BAKI EKSPO MƏRKƏZİNDƏ 18-ci AZƏRBAYCAN BEYNƏLXALQ **KƏND TƏSƏRRÜFATI "CASPİAN AGRO" SƏRGİSİNİN** RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB.












# VİP QONAQLARIN RƏYLƏRİ



"Caspian Agro" və bu il yubileyini qeyd edən "InterFood Azerbaijan" sərgiləri artıq illərdir ki, kənd təsərrüfatı və qida sənayesində yerli və xarici şirkətlərin innovativ həllərini, yeni texnologiyalarını təqdim etdiyi mühüm platformalardan biri kimi çıxış edir. Bu sərgi fermerlər, sahibkarlar, investorlar və mütəxəssislər üçün kənd təsərrüfatı və qida sənayesinin aktual məsələləri barədə fikir mübadiləsi aparmaq, biznes əlaqələri qurmaq və müasir innovasiyalarla tanış olmaq imkanı yaradır.

**Məcnun Məmmədov**
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri



İnanıram ki, qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən tərəflərin iştirak etdiyi bu beynəlxalq tədbirdə qida sahəsində məhsul və xidmətlərin nümayiş etdirilməsi yeni işgüzar əlaqələrin qurulmasına və genişləndirilməsinə böyük töhfə verəcək.

**Qoşqar Təhməzli**
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri



Hər il təşkil olunan bu sərgilər aqrar və qida sektorlarında qazanılan uğurların, innovativ texnologiya və müasir texnikaların nümayiş olunduğu əhəmiyyətli platformalardandır. Xüsusilə, sərgilərdə nümayiş etdirilən ən son aqrar texnologiyalar və innovasiyalar müvafiq sektorlarda məhsuldarlığın artırılmasını, resurslardan daha səmərəli istifadəni və ekoloji cəhətdən dayanıqlı həllərin tətbiqini təşviq edir. Müxtəlif sahələri əhatə edən şirkətləri, o cümlədən idxalçı və ixracatçıları, distribütorları, xarici və yerli ekspertləri, eləcə də ziyarətçiləri bir yerə toplayan sərgilər fikir və təcrübə mübadiləsi, yeni əməkdaşlıqların qurulması və genişləndirilməsi üçün də əlverişlidir.

**Orxan Məmmədov**
Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri



FAO bu mühüm tədbirin bir hissəsi olmaqdan şərəf hissi keçirir. Bu sərgi hər gün qida təhlükəsizliyini təmin etmək, kənd təsərrüfatını gücləndirmək və daha dayanıqlı gələcək qurmaq üçün çalışan insanları bir araya gətirir. Azərbaycanın kənd təsərrüfatı sahəsində qazandığı uğurları qeyd edərkən və COP29-un nəticələri üzərində inşa edərkən, hər birinizə gördüyünüz işlərə görə təşəkkür etmək istəyirəm. Bu sərgi yalnız tərəqqinin nümayişi deyil — bu, əməkdaşlıq, ilham və yeni imkanlar üçün bir məkandır.

**Muhammad Nasar Hayat**
FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələr Ofisinin rəhbəri

# PR KAMPANİYASI Və KİV-Də İŞIQLANDIRMA

## MƏTBUAT KONFRANSI

6 may tarixində Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" sərgisinə həsr olunmuş mətbuat konfransı "Hilton Baku" mehmanxanasında keçirildi.

Mətbuat konfransında aşağıdakılar iştirak ediblər:



**Toğrul Qafarbəyli**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktor müavini



**Nərmin Kərimli**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Texnoloji transfer və innovasiya şöbəsinin müdiri



**Fərhad Aşurbəyli**
Azərbaycan Kulinariya Mütəxəssisləri Assosasiyasının İcraçı direktoru



**Bəhruz Hidayətzadə**
"Caspian Event Organiser" şirkətinin icraçı direktoru



**Zarina Məmmədova**
"Caspian Agro" sərgisinin layihə rəhbəri

Mətbuat konfransına 23 media qurumundan 35 nəfər qatılmışdır. Təmsil olunan media qurumları arasında TV kanallardan AZTV , İctimai TV , Baku TV , CBC TV , Mir TV , ARB TV , AGRO TV, xəbər saytları və jurnallardan APA, Azertac, Oxu.az, Trend.az, Report İnformasiya Agentliyi, Caliber.az, Media.az, yeniavropa.az, Today Press, Bizness Time, Star xəbər, resurs.az , visiontv.az, referans.az, Respublika qəzeti, Respublikainfo.com saytının nümayəndələri mətbuat konfransında iştirak etmişdir.









# REKLAM KAMPANİYASI

## KİV İCMALI

- KÜÇƏ REKLAMI
- BİLBORDLAR
- MONİTORLAR
- POSTERLƏR
- ROLAPLAR


















**62** QƏZET VƏ JURNALLARDA XƏBƏR

**185** XƏBƏR PORTALINDA 1233 XƏBƏR

**59** TV VƏ RADIO KANALLARDA SÜJET

İXTİSASLAŞDIRILMIŞ MƏLUMAT BAZASI ÜZRƏ ELEKTRON POÇT VASİTƏSİ İLƏ GÖNDƏRİŞLƏR

TƏRƏFDAŞLARIN, DÖVLƏT STRUKTURLARIN VƏ ASSOSİASİYALARIN MƏLUMAT BAZALARI ÜZRƏ ELEKTRON POÇT VASİTƏSİ İLƏ GÖNDƏRİŞLƏR

MƏLUMATIN İXTİSASLAŞDIRILMIŞ NƏŞRLƏRDƏ, İXTİSASLAŞDIRILMIŞ SAYTLARDA VƏ SOSİAL ŞƏBƏKƏLƏRDƏ YERLƏŞDİRİLMƏSİ

# SPONSORLAR VƏ TƏRƏFDAŞLAR

## TƏŞKİLATİ DƏSTƏK

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

## TƏŞKİLATÇILAR

ceo caspian event organisers

Iteca Caspian

caspian event management

icaevents

## DƏSTƏK

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası

## SPONSOR

PRIOR

## RƏSMİ MEHMANXANALAR

ibis

Radisson Baku

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

Greenwich Travel Club

## TİBB XİDMƏTLƏRİ ÜZRƏ TƏRƏFDAŞ

Referans Medical Group

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

AZ Expo Montage

## NETVORKİNQ TƏRƏFDAŞI

Caspian Energy Club — Energy for Business

## İNFORMASİYA TƏRƏFDAŞLARI

AZ TV

AZƏRTAC

1NEWS.AZ

## RƏSMİ RADİO TƏRƏFDAŞI

asan radio 100 FM

## İNFORMASİYA DƏSTƏYİ

Аграрная Тема

Agro Azerbaijan

BHB Strategic & Creative Co.

Business Time

Caspian Energy International Media Group

Park Bulvar Baku

Tarım Türk dergisi

## İNTERNET DƏSTƏYİ

abc.az

Аграрный сектор

АгроXXI

Агромир

apa

АПК Эксперт

Вестник агропромышленного комплекса

Globy

Lent.az

ona onlayn xəbər agentliyi

Светич АгроМедиаХолдинг

vesti.az

# CASPIAN AGRO 2025 – ZİYARƏTÇİLƏR

**14820**

ZİYARƏT SAYI

**11400**

UNİKAL ZİYARƏTÇİLƏRİN SAYI

## VƏZİFƏLƏR ÜZRƏ CASPIAN AGRO 2025 ZİYARƏTÇİLƏRİ

- Dövlət kənd təsərrüfatı strukturlarının nümayəndələri
- Aqrosənaye kompleksinin mütəxəssisləri
- Kənd təsərrüfatı müəssisələri, heyvandarlıq təsərrüfatları və unüyüdən zavodların sahibləri
- İstixanaların sahibləri
- Balıqçılıq təsərrüfatlarının sahibləri
- Ət-süd və konserv məhsullarının istehsalı üzrə müəssisələrin rəhbər və mütəxəssisləri
- Fermerlər
- Kənd təsərrüfatı məhsullarının distribütorları
- Mətbuat nümayəndələri
- Diplomatik korpuslar








Ziyarətçilərin **94%** öz səfərini səmərəli hesab edirlər

Ziyarətçilərin **78%** satın alma qərarlarını qəbul edir və ya onlara təsir göstərirlər

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ



Kənd təsərrüfatı sərgilərinin keçirilməsi biz aqrar sahə nümayəndələri üçün son dərəcə vacib və əhəmiyyətlidir. Sərgi yüksək səviyyədə təşkil olunub. Nümayiş edilən ekspozisiyalar və sərginin işgüzar proqramının zəngin məlumat məzmunu ilbəil biliklərimizi artırır və təsərrüfatlarımızı daha səmərəli idarə etmək üçün imkanlarımızı genişləndirir.

**Ənvər Quliyev**
Qubadlı Dövlət Kənd Təsərrüfatı İnkişafı Mərkəzinin direktoru, Azərbaycan

Sərgi böyük və miqyaslıdır, qısa müddət ərzində geniş əlaqələr qurmaq imkanı yaradır. Mənim üçün maraqlı olan şirkətlərlə tanışlığa bir gün kifayət etmədi. Buna görə də sərginin ikinci günü də buraya gəldim. Məncə, bu, sərginin səviyyəsinin göstəricisidir və iştirakçıların sayına və keyfiyyətinə görə nə qədər əhatəli olduğunu təsdiqləyir. Təbii ki, sərgi prosesi çox intensiv keçir. Biz bu prosesi əsasən tanışlıq və ilkin əlaqələrin qurulması üçün istifadə edirik.



**Mehmen Çümen**
"Polen" şirkətinin satış direktoru,Türkiyə



Aqrar sahədə çalışanlar, yəni torpaqla birbaşa məşğul olan fermerlər üçün sərgilərə qatılmaq çox dəyərli bir təşəbbüsdür. Son illər ərzində fermerlərimiz kənd təsərrüfatı sahəsindəki ən yeni texnologiya və innovativ fikirlərlə birbaşa istehsalçılardan öyrənərək tanış olmaq imkanı əldə edirlər. Sərgidə müxtəlif mövzularla bağlı bütün mühüm sahələr nümayiş olunub və hər bir bölgədən olan aqrar sahə işçiləri burada özlərini maraqlandıran məlumatları əldə ediblər. Sərgidə işgüzar əlaqələr qurulub və bu əlaqələrin gələcəkdə tətbiq olunması vacibdir.

**Ariz Abuzərov**
Hacıqabul Dövlət Kənd Təsərrüfatı İnkişafı Mərkəzinin direktoru, Azərbaycan

"Caspian Agro" sərgisi mənə ölkə, bazar, insanlar və kənd təsərrüfatı texnikası sahəsində biznesin təşkili barədə tam təsəvvür verdi. Bir çox potensial tərəfdaşlarla tanış olduq və onların qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olduqlarını gördük. Sərgidə kənd təsərrüfatı texnikası təchiz edən şirkətlər geniş şəkildə təmsil olunub. Hesab edirəm ki, "Caspian Agro" sərgisi özünü nüfuzlu beynəlxalq tədbir statusunda tam şəkildə təsdiqlədi. Bu çərçivədə çox sayda mühüm biznes görüşləri keçirmək mümkündür. Axı insanlar arasında canlı ünsiyyətdən daha yaxşı heç nə yoxdur.




**Vadim Şevçuk**
"Kerland" şirkətinin sahibi və direktoru, Belarus Respublikası

# CASPIAN AGRO 2025 – İŞTİRAKÇILAR

**294** ŞİRKƏT

**28** ÖLKƏ

**13039** $M^2$ SƏRGİ SAHƏSİ



# CASPIAN AGRO 2025 İŞTİRAKÇI ÖLKƏLƏR

- AZƏRBAYCAN
- ABŞ
- ALMANİYA
- BELÇİKA
- BELARUS
- BÖYÜK BRİTANİYA
- ÇİN
- CƏNUBİ KOREYA
- FİNLANDİYA
- FRANSA
- GÜRCÜSTAN
- HİNDİSTAN
- İRAN
- İORDANİYA
- İSRAİL
- İSPANİYA
- İSVEÇ
- İTALİYA
- KANADA
- LATVİYA
- MİSİR
- NİDERLAND
- QAZAXISTAN
- RUSİYA
- SERBİYA
- ŞRİ LANKA
- TÜRKİYƏ
- YUNANİSTAN

# SƏRGİ İŞTİRAKÇILARININ RƏYLƏRİ



Bizim sərgidə iştirakımız prestij məsələsidir. Bazarda mövcudluğumuzu mütləq şəkildə nümayiş etdirmək və öz sahəmizdə ən yaxşı olduğumuzu sübut etmək bizim üçün vacibdir. Şirkət rəhbərlərimiz sərgidə adətən uzun müddətdir əməkdaşlıq etdiyimiz tərəfdaşlarla görüşürlər. Əlbəttə ki, həm yerli, həm də xarici şirkətlər tərəfindən məhsulumuza böyük maraq müşahidə edirik. Bizim layihələrimiz çoxşaxəlidir və olduqca bahalıdır.

**Cüneyt Ar**

«Obial» şirkətinin Satış üzrə Regional Direktoru, Türkiyə

Ümumilikdə, "Caspian Agro" sərgisi bizdə çox müsbət təəssürat yaratdı. Burada kənd təsərrüfatı və qida sənayesinin demək olar ki, bütün sahələri təmsil olunub. Azərbaycan kimi kiçik bir ölkə üçün bu sərgi həm iştirak edən şirkətlərin səviyyəsinə, həm də peşəkar və maraqlı ziyarətçilərin sayına görə çox yüksək səviyyədə təşkil olunub.



**Roman Kurjunov**

"Green Automation Group" şirkətinin baş direktoru, Finlandiya



Caspian Agro sərgisi iştirak etdiyimiz tədbirlər arasında xüsusi yer tutur. Bu sərgi brendin tanınmasını artırmaqla yanaşı, yeniliklərimizi nümayiş etdirmək üçün də əla fürsətdir. Sərgidə iştirak sayəsində müştərilərlə birbaşa ünsiyyət qurmaq, rəylər toplamaq və texnikamızın istifadəçilərinin ehtiyaclarını daha yaxşı anlamaq imkanı yaranır. Sərginin nəticələri bu regiondakı satış strategiyamıza müsbət təsir göstərir. Əvvəlki Caspian Agro sərgilərində iştirakımızın müsbət nəticələri yerli bazarda mövqeyimizi genişləndirməyə imkan verib.

**Anton Malıxin**

"Rostselmaş" şirkətinin ixrac üzrə direktoru, Rusiya

# BEYNƏLXALQ AQRAR İNNOVASİYA FORUMU

Forum aqrar sektorun aktual çağırışları və perspektivləri, o cümlədən davamlı inkişaf, iqlim dəyişiklikləri, rəqəmsallaşma və beynəlxalq əməkdaşlıq mövzularında ekspertləri və iştirakçıları birləşdirdi.

## FORUMUN ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ:

- Kənd təsərrüfatında iqlim dəyişiklikləri və davamlı inkişaf məsələləri
- Süni intellekt və ağıllı kəndlər daxil olmaqla, innovativ texnologiyaların tətbiqi
- Aqroparkların, startapların və rəqəmsal həllərin (Smart Agro) inkişafı
- Sahibkarlığın, kooperativlərin dəstəklənməsi və aqrar sektorda qadınların rolu
- Dövlət maliyyə dəstəyi və aqrosığorta sistemi
- Təhsil və balıqçılığın inkişafında sahələrarası əməkdaşlıq
- Aqronomiyada dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin müzakirəsi

FORUM AQRAR SEKTORUN DAVAMLI VƏ İNNOVATİV İNKİŞAFI ÜÇÜN ƏSAS MARAQLI TƏRƏFLƏR ARASINDA DİALOQUN GÜCLƏNMƏSİNƏ TÖHFƏ VERDİ.












# İŞGÜZAR SƏHƏR YEMƏYİ

Təşkilatçılar sərgidən əvvəl keçirilən işgüzar səhər yeməyində iştirakçılar ilə bir sıra görüşlər keçiriblər. Bu tədbirin keçirilməsində məqsəd iştirakçılara sərginin imkanlarından səmərəli şəkildə istifadə etməkdə köməklik göstərmək olmuşdur.








# B2B WORKSHOP

Sərgi çərçivəsində eyni anda bir neçə əsas müştəri ilə işgüzar danışıqlar aparmaq üçün əlavə imkan yaradan “B2B” formatlı görüşlər keçirilib. Bu görüşlərdə xarici və yerli istehsalçılar, habelə distribütorlar və pərakəndə satış şəbəkələrinin nümayəndələri iştirak ediblər. 218 iş görüşməsi keçirilib.







# FERMER TURLARI

Ənənəvi olaraq hər il Caspian Agro sərgisində Azərbaycanın 63-dən çox regionundan təcrübə mübadiləsi və yeni texnologiyalarla tanış olmaq məqsədi ilə işgüzar turlar təşkil olunur ki, bu da yüksək keyfiyyətli məhsul istehsal etmək üçün vacib şərtlərdən sayılır.











# AXŞAM ZİYAFƏTİ

Mayın 13-də sərginin qonaqları və təşkilatçılar üçün axşam ziyafəti təşkil edilib. Axşam ziyafəti "Buta Palace"da keçirilib.

# GƏLƏN İL KEÇİRİLƏCƏK SƏRGİNİN XÜLASƏSİ

CASPIAN agro

19-cu Azərbaycan Beynəlxalq

## KƏND TƏSƏRRÜFATI SƏRGİSİ

5|6|7|8 MAY 2026

BAKI EKSPO MƏRKƏZİ

www.caspianagro.az caspianagro.az CaspianAgro Caspian Agro #CaspianAgro

## SƏRGİNİN ƏSAS BÖLMƏLƏRİ

### İNFRASTRUKTUR VƏ TEXNİKA

- Kənd təsərrüfatı texnikası
- Kənd təsərrüfatı obyektləri
- Kənd təsərrüfatı avadanlıqları
- İstixana
- Suvarma sistemləri
- Laboratoriya avadanlıqları

### BİTKİÇİLİK

- Bitkiçilik
- Meyvə və tərəvəz yetişdirilməsi
- Gülçülük
- Gübrələr
- Aqroekologiya və orqanik kənd təsərrüfatı

### HEYVANDARLIQ VƏ YEMLƏMƏ

- Heyvandarlıq və quşçuluq
- Yem məhsulları
- Baytarlıq
- Balıqçılıq və akvakultura

### EMAL VƏ QABLAŞDIRMA

- Qablaşdırma
- Tullantıların emalı
- Pambıqçılıq və tekstil

### SMART AGRO (RƏQƏMSAL VƏ İNNOVATİV KƏND TƏSƏRRÜFATI)

- Ağıllı kənd
- Əşyaların interneti
- Süni intellekt
- Robototexnika sistemləri
- Pilotsuz uçuş aparatları (dronlar)
- İT xidmətləri
- Startaplar
- Yaşıl aqro

### İNNOVASİYALAR VƏ DAYANIQLI İNKİŞAF

- Kənd təsərrüfatında innovativ texnologiyalar
- Kənd təsərrüfatı landşaftı

### DƏSTƏK VƏ XİDMƏTLƏR

- Logistika
- Aqrosığorta və maliyyə xidmətləri








TƏŞKİLATİ DƏSTƏK

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

RƏSMİ DƏSTƏK

AQTA — Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi

KOBİA — Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

azpromo — Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

ASK — Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

AQİSA — Azərbaycan Qida və İçki Sanayeçiləri Assosiasiyası

FAO — BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası

CASPIAN agro

19-cu Azərbaycan Beynəlxalq

# KƏND TƏSƏRRÜFATI SƏRGİSİ

**5|6|7|8 MAY 2026**

BAKI EKSPO MƏRKƏZİ

TƏŞKİLATÇILAR

ceo caspian event organisers

ITECA CASPIAN

caspian event management

icaevents

**www.caspianagro.az**

caspianagro.az

**CaspianAgro**

**Caspian Agro**

#CaspianAgro

